## 2019-CU İLİN YANVAR-MART AYLARINDA AZƏRBAYCAN RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA DAİR

## ARAYIŞ

Son illər ərzində ölkəmizdə çoxşaxəli və ardıcıl islahatlar davam etdirilmiş, qeyri-neft ixracının artırılması üzrə kompleks stimullaşdırıcı tədbirlər görülmüş, regionların tarazlı inkişafı təmin edilmiş, dövlət-sahibkar münasibətlərinin və biznes-investisiya mühitinin təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daima diqqət mərkəzində saxlanılmışdır.

2019-cu ilin yanvar-mart aylarında ölkənin mövcud sosial iqtisadi vəziyyətinin təhlili göstərir ki, həyata keçirilən davamlı islahatlar nəticəsində yaradılan güclü iqtisadi potensial iqtisadiyyatın dayanıqlığını artırmış və ölkədə makroiqtisadi sabitlik qorunub saxlanılmışdır.

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən edilmiş tədbirlərin icrası uğurla davam etdirilmişdir.

Görülmüş işlərin nəticəsində 2019-cu ilin yanvar-mart aylarında ÜDM real ifadədə 3.0% artaraq cari qiymətlərlə 18.1 milyard manat olmuşdur. Adambaşına düşən ÜDM-in həcmi 1835.1 manat təşkil etmişdir.

2019-cu ilin yanvar-mart aylarında ÜDM-in qeyri-neft sektoru real ifadədə 1.7% artmışdır. Qeyd edək ki, 2019-cu ilin yanvar-mart aylarında 2018-ci ilin müvafiq dövrünə nisbətən qeyri-neft sənayesi 16.1%, informasiya və rabitə sahəsi 7.6%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsi 2.4%, ticarət sahəsi 2.7%, kənd təsərrüfatı 3.6%, nəqliyyat və anbar təsərrüfatı 3.8% artmışdır.

Neft-qaz sektoru üzrə 2019-cu ilin yanvar-mart aylarında 2018-ci ilin müvafiq dövrünə nisbətən 4.6% artım qeydə alınmışdır. Bu sektorun ÜDM-də xüsusi çəkisi 42.8% olmuşdur.

2019-cu ilin yanvar-mart aylarında ölkədə iqtisadiyyatın və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2699.7 milyon manat investisiya yönəldilmişdir. Əsas kapitala qoyulmuş vəsaitin 67.3%-ni daxili investisiyalar, 32.7%-ni isə xarici investisiyalar təşkil etmişdir. Müvafiq dövrdə əsas kapitala yönəldilmiş ümumi investisiyaların 1604.9 milyon manatı (59.4%-i) qeyri-neft bölməsinin, 1094.8 milyon manatı (40.6%-i) isə neft bölməsinin inkişafında istifadə edilmişdir.

Ölkədə qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən islahatlar Azərbaycan iqtisadiyyatına müsbət təsir göstərmiş, ixrac gəlirləri artmışdır.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2019-cu ilin yanvar-fevral aylarında xarici ticarət dövriyyəsi 5121.2 milyon ABŞ dolları, o cümlədən ixrac 2955.4 milyon ABŞ dolları, idxal isə 2165.8 milyon ABŞ dolları olmuş və 789.6 milyon ABŞ dolları həcmində müsbət ticarət saldosu yaranmışdır. Bu dövr ərzində qeyri-neft ixracı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16.5% artmışdır.

2019-cu ilin 1 mart tarixinə iqtisadiyyata maliyyə-kredit təşkilatlarının təqdim etdikləri kreditlərin həcmi 2018-ci ilin 1 mart tarixinə nisbətən 12.2% artaraq 12974.6 milyon manat təşkil

etmişdir. 2019-cu ilin 1 mart tarixinə milli valyutada verilən kreditlərin həcmi 2018-ci ilin 1 mart tarixi ilə müqayisədə 16.5%, xarici valyutada verilən kreditlərin həcmi isə 5.6% artmışdır.




***Qrafik 1. İqtisadiyyata kredit qoyuluşları, dövrün sonuna mln. AZN***

2019-cu ilin 1 mart tarixinə əhalinin banklardakı əmanətləri 2018-ci ilin 1 mart tarixinə nisbətən 6% artaraq 8.2 milyard manat təşkil etmişdir (2018-ci ilin 1 mart tarixinə əhalinin banklardakı əmanətləri 7.8 milyard manat olmuşdur).

2019-cu ilin 1 mart tarixinə cəmi depozitlər illik müqayisədə 8.3%, milli valyutada olan depozitlər isə 34.3% artmışdır.




*Qrafik 2. Əhalinin əmanətləri, dövrün sonuna, mln. AZN*

2019-cu ilin yanvar-mart aylarında əhaliyə istehlak bazarında satılmış məhsulların və göstərilmiş xidmətlərin ümumi həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 2.4% artaraq 11252.8 milyon manata bərabər olmuşdur. Pərakəndə ticarət dövriyyəsi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2.7%, əhaliyə göstərilən ödənişli xidmətlərin həcmi isə 0.8% artmışdır. 2019-cu ilin müvafiq dövründə ölkə sakinləri pərakəndə ticarət şəbəkəsindən 4.5 milyard manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları və 4.4 milyard manatlıq qeyri-ərzaq malları almış və bu göstəricilərin həcmi ötən ilin eyni dövrünə nəzərən müvafiq olaraq 2.4% və 3.1% artmışdır.

2019-cu ilin 1-ci rübündə əhalinin nominal gəlirləri 5.5% artaraq 12.6 milyard manat təşkil etmiş, əhalinin hər nəfərinə düşən nominal gəlirləri isə 4.6% artaraq 1275.7 manata çatmışdır.

2019-cu ilin yanvar-fevral aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqları 2018-ci ilin eyni dövrü ilə müqayisədə 8.6% artaraq 554.9 manat təşkil etmişdir